

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 16 (21.168)

*24 yanvar 2015-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Yanvarın 22-də Davosda “Bakı-2015” ilk Avropa Oyunlarının təqdimatı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Heydər Əliyev Fondunun təşkilatçılığı və dəstəyi ilə keçirilən təqdimat mərasiminə İsveçrənin ictimai-siyasi dairələrinin, beynəlxalq idman ictimaiyyətinin nümayəndələri, Dünya İqtisadi Forumunda iştirak edən xarici ölkələrin təmsilçiləri qatılmışdılar.

Qonaqlar əvvəlcə Azərbaycan heykəltəraşlarının “Bakı-2015”-ə həsr olunmuş bürünc heykəllərindən ibarət sərgiyə baxdılar. “Biz birlikdə” adlanan bu sərgidə 20-dən çox heykəltəraşımızın idmanın müxtəlif növlərini təsvir edən əsərləri sərgilənirdi.

Qonaqlara Heydər Əliyev Fondunun Azərbaycan haqqında müxtəlif nəşrləri, o cümlədən Birinci Avropa Oyunlarına həsr olunan bukletləri təqdim edildi.

Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.

Daha sonra mərasim iştirakçıları “Bakı-2015”-ə həsr olunan filmə baxdılar. Filmdə ilk Avropa Oyunlarına hazırlıq işləri və digər tədbirlər barədə geniş məlumat verildi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Ölkələrimizin həyata keçirdiyi qlobal enerji layihələrinin önəmi vurğulandı.

* * *

Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Monako Şahzadəsi II Albert ilə görüşü olub.




# Naxçıvan şəhərində yeni yaşayış binası istifadəyə verilmişdir

Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların mərkəzində insan amili dayanır. Əhalinin rahat yaşayışının təmin olunması, xüsusilə insanların mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Günü-gündən öz görkəmini dəyişən paytaxt Naxçıvan şəhərində də bu məsələ diqqət mərkəzində saxlanılır. Bu gün şəhərdə yeni inzibati binalar və sosial obyektlərlə yanaşı, həm də müasir yaşayış binaları tikilərək istifadəyə verilir.





Yanvarın 23-də Naxçıvan şəhərinin Kazım Talıblı küçəsində 20 nömrəli yaşayış binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikanın sosial-iqtisadi inkişafı bütün sahələrdə əhalinin rahatlığının təmin olunmasına şərait yaratmışdır. Naxçıvan şəhərində həyata keçirilən tikinti-quruculuq işlərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir. Hər il şəhərdə yeni yaşayış binaları inşa olunur, mövcud binalar yenidən qurularaq istifadəyə verilir. Həyata keçirilən tədbirlər ailələrin kommunal-məişət şəraitini daha da yaxşılaşdırır, sakinlər tərəfindən razılıq hissi ilə qarşılanır.

Yeni mənzillə təmin olunan Mina Qasımova bina sakinləri adından minnətdarlıq edərək demişdir ki, insanların məişət qayğıları həll olunduğu zaman rahat yaşayışları da təmin olunur. Bu gün Naxçıvan şəhərində sakinlərin rahat yaşaması üçün hər cür şərait vardır. Yeni yaşayış binalarının tikilməsi və sakinlərin mənzillərlə təmin olunması da bu istiqamətdə görülən tədbirlərin tərkib hissəsidir. Mina Qasımova demişdir ki, bütün bunları dövlət qayğısı kimi dəyərləndirən sakinlər bundan sonra da muxtar respublikanın inkişafında, onun paytaxtı Naxçıvan şəhərinin abadlaşmasında yaxından iştirak edəcəklər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərində 12 ailənin yeni mənzillə təmin olunduğunu bildirmiş və bu əlamətdar hadisə münasibətilə sakinləri təbrik edərək demişdir: “Bu gün Naxçıvan şəhərinin abad guşələrindən birində yeni yaşayış binası istifadəyə verilir. Yaşayış binasında mənzillə təmin olunan ailələrin əvvəlki mənzillərinin yerləşdiyi ərazi yaşayış üçün uyğun deyildi. Ona görə də yeni bina tikilmiş və həmin ərazidə yaşayan insanlar lazımi şəraiti olan mənzillərə köçürülmüşlər. Sakinlərin daimi mülkiyyətinə verilən bu mənzillərdə hər cür kommunal şərait yaradılmış, insanların rahat yaşayışı təmin olunmuşdur”.



Ali Məclisin Sədri demişdir: “Rahat yaşayış şəraiti olan mənzil sağlam həyat deməkdir. Ona görə də insanların yaşayış yeri dəyişdirilərkən onların rahatlığı nəzərə alınır, yeni mənzillərində müasir kommunal şərait yaradılır. İstifadəyə verilən bu binada da sakinlərin sağlam yaşayışları təmin ediləcəkdir. Həyata keçirilən bu tədbirlər ölkəmizdə insan amilinə verilən yüksək qiymətin daha bir ifadəsidir”.

Ali Məclisin Sədri sakinlərin tikilənlərdən, qurulanlardan səmərəli istifadə edəcəklərinə, ərazini şəhərin abad bir guşəsi kimi qoruyub saxlayacaqlarına əminliyini bildirmiş, onlara yeni mənzillərində xoş həyat arzulamışdır.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini təqdim etmiş, açılışı bildirən lenti kəsmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binadakı 12 mənzilin 9-u ikiotaqlı, 3-ü isə üçotaqlıdır. Yaşayış binası zəruri kommunikasiya sistemləri ilə təchiz olunmuş, yeni su və kanalizasiya xəttinə qoşulmuş, mənzillərin hər birində fərdi istilik sistemi quraşdırılmış, fiber-optik xətt çəkilmişdir. Ümumi yaşayış sahəsi 660 kvadratmetr olan mənzillər Naxçıvan şəhərinin Kalbalıxan və Cəlil Məmmədquluzadə küçələrində fərdi evləri plana düşən ailələrə təqdim olunmuşdur.

Ali Məclisin Sədri yaşayış binasının zirzəmisində müxtəlif məişət-xidmət sahələrinin yaradılması barədə tapşırıq vermişdir.

Kazım Talıblı küçəsindəki 1 nömrəli yaşayış binasında da əsaslı təmir işləri aparılmışdır. 2 mərtəbə və 12 mənzildən ibarət olan binanın dəhlizi, fasadı, dam örtüyü, qapı və pəncərələri yenilənmiş, mərkəzi antena sistemi quraşdırılmış, hər iki binanın həyətində geniş abadlıq işləri görülmüşdür.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Qış aylarında istehlakçılar dayanıqlı elektrik enerjisi ilə təmin edilirlər

*Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən abonentlərin elektrik enerjisi tələbatının, yaşayış sahələrinin, istehsal müəssisələrinin və sosial obyektlərin, nasos stansiyaları və artezian quyularının elektrik təchizatının yaxşılaşdırılması məqsədilə kompleks tədbirlər davam etdirilir. 2014-cü ilin dekabr ayında da bu istiqamətdə müvafiq işlər görülmüş, yeni elektrik verilişi xətlərinin çəkilməsi, transformator yarımstansiyalarının qoyulması, mövcud hava verilişi xətlərinin yeraltı kabel xətləri ilə əvəz edilməsi işləri davam etdirilmişdir.*

Muxtar respublikanın elektrik enerjisi təchizatında müstəsna əhəmiyyətə malik olan 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyasının 10-cu aqreqatı demontaj edilmiş, bəzi hissələri əsaslı təmir məqsədilə Bakı şəhərinə göndərilmiş, stansiyanın inzibati binasının istilik təchizatı yaxşılaşdırılmışdır. Həmçinin Araz, Qaz-Turbin, Biləv və "Arpaçay-1" Su Elektrik stansiyalarında da cari təmir işləri aparılmış, stansiyaların tam gücü ilə işləməsi üçün zəruri tədbirlər görülmüşdür. Qeyd olunan dövrdə yarımstansiyaların sazlığına nəzarət də gücləndirilmiş, yeni 110/35/10 kilovoltluq 35 meqavolt-amper güclü "Qıvraq" yarımstansiyasında tikinti-quraşdırma işləri davam etdirilmiş, yüksəkgərginlikli izolyatorlar, nəzarət-ölçü kabelləri çəkilmiş və idarəetmə panelləri qoyulmuşdur. Kəngərli Rayon Elektrik Şəbəkəsinin ikimərtəbəli yeni inzibati binasının tikintisi isə yekunlaşmaq üzrədir.

Elektrik enerjisi verilişinin davamlılığının və dayanıqlılığının təmin olunması tədbirləri də diqqət mərkəzində saxlanılır. 2014-cü ilin dekabr ayında bu məqsədlə Naxçıvan şəhəri də daxil olmaqla, muxtar respublikanın bütün bölgələrində 6,1 kilometr uzunluqlu yeni müxtəlifgərginlikli elektrik verilişi xətləri çəkilmiş, 4,8 kilometr uzunluğunda hava elektrik verilişi xətti və 70-dən çox elektrik dirəyi yenisi ilə əvəz edilmiş, 11 transformator yarımstansiyası əsaslı təmir edilmişdir. Bu dövr ərzində Ordubad rayonunun Məzrə kəndindəki teleötürücünün mütəmadi olaraq elektrik enerjisi ilə təmin olunması məqsədilə 40 kilovolt-amper və Şahbuz rayonunun Biçənək kəndində 63 kilovolt-amper gücündə yeni transformator yarımstansiyaları quraşdırılmışdır.

Şəhər və rayon elektrik şəbəkələrində qrafik əsasında əsaslı və cari təmir işləri aparılmış, məftil və aqreqatların qış rejiminə uyğun nizamlanması, əlavə dayaqların qoyulması, sıradan çıxan izolyatorların, kabel çıxışlarının və abonent girişlərinin dəyişdirilməsi, yeni yüksək və alçaqgərginlikli kommutasiya aparatlarının qoyulması işləri davam etdirilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində ötən ilin dekabr ayı ərzində abonentlərin elektrik enerjisinə olan tələbatı tamamilə ödənilmiş, əhaliyə nümunəvi xidmət göstərilmişdir.

Agentliyin mütəxəssisləri müvafiq qurumların əməkdaşları ilə birlikdə əhali arasında maarifləndirici söhbətlərin və reydlərin aparılmasını davam etdirmiş, işlədicilərə ötürülmüş elektrik enerjisinin dəyərinin ödənilməsi təmin edilmiş, sayğacdankənar müdaxilələrin və elektrik enerjisindən israfçılıqla istifadənin qarşısı alınmışdır.

Ümumiyyətlə, ötən ili uğurla başa vuran energetiklər qış aylarında əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatına nail olmuşlar. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin kollektivi bu istiqamətdə işləri 2015-ci ildə də davam etdirir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti***

*Muxtar respublikada rabitə və informasiya texnologiyaları sektorunun inkişafı, bütün sahələrdə yeni texnologiyaların tətbiqi istiqamətində mühüm tədbirlər görülür, bu sahədə vətəndaşlara təqdim olunan qabaqcıl xidmətlərin səviyyəsi hər ötən ay daha da yüksəldilir. 2014-cü ilin dekabr ayında görülən tədbirlər də bu baxımdan diqqəti cəlb edir. Belə ki, bu dövrdə sabit telekommunikasiya sektorunun təkmilləşdirilməsi, keyfiyyətli və dayanıqlı telefon rabitəsinin təşkili məqsədilə mövcud telefon stansiyalarının nömrə tutumlarının artırılması diqqət mərkəzində saxlanılmışdır. Belə ki, mövcud telefon stansiyalarının nömrə tutumlarının artırılması və CDMA simsiz rabitənin genişləndirilməsi nəticəsində, ümumilikdə, 304 yeni telefon nömrəsi istismara verilmiş, "Evədək optika" layihəsi üzrə yeni xətlərin çəkilişi davam etdirilmişdir.*

## Muxtar respublikada əhaliyə keyfiyyətli rabitə xidməti göstərilir

Şərur rayonunun Kürkənd kəndində 208 nömrə tutumlu, Şahbuz rayonunun Gömür kəndində 160 nömrə tutumlu yeni nəsil ATS qurularaq işə salınmışdır. Bundan əlavə, montaj tutumu 512 nömrə olan Şərur rayonunun Püsyan kənd və montaj tutumu 256 nömrə olan Şahbuz rayonunun Nursu kənd avtomat telefon stansiyası yeni binaya köçürülmüş, yaşayış məntəqələrinə 2,8 kilometr yeraltı, 10 kilometrdən artıq yerüstü olmaqla, ümumilikdə, 13,5 kilometr kabel xətti, 14 kilometrə yaxın fiber-optik kabel çəkilmişdir.

Müasir texnologiyaların təhsil sistemində tətbiqi bu günün ən mühüm şərti, inkişafın əsas meyarı hesab olunur. Buna görə də muxtar respublikanın təhsil müəssisələrinin yeni texnologiyalarla təmin olunmasına xüsusi diqqət yetirilir. Dekabr ayında Babək rayonunun Naxışnərgiz və Şahbuz rayonunun Nursu kənd tam orta məktəblərinin hər birində 19, Kəngərli rayonunun Qarabağlar kənd 1 nömrəli tam orta məktəbində 38 kompüter dəsti quraşdırılmış, məktəblərin internetə çıxışı təmin edilmişdir. Bu da həmin təhsil ocaqlarında dərslərin müasir metodlarla keçilməsi ilə yanaşı, həm də muxtar respublikanın distant təhsil sisteminə qoşulmasına da şərait yaratmışdır.

Görülən məqsədyönlü işlər poçt xidmətinin inkişafına da öz töhfəsini verir. Muxtar respublikanın poçt şəbəkəsinin genişləndirilməsi istiqamətində görülən işlər davam etdirilmiş, Naxışnərgiz və Nursu kəndlərində yeni poçt bölməsi yaradılmış və lazımi avadanlıqlarla təmin edilmişdir. Naxışnərgiz, Püsyan, Biləv, Yuxarı Qışlaq kəndlərinin poçt bölmələrində müasir kompüter avadanlıqları qoyulmuş, MHM şəbəkəsi qurularaq kommunal xidmət ödənişlərinin aparılması təmin edilmişdir. Həmçinin mobil cihazların qeydiyyatı üçün muxtar respublikanın bütün rayon mərkəzlərində qeydiyyat bölmələri də fəaliyyətə başlamışdır.

Bütün bunların nəticəsi olaraq, "Naxçıvanpoçt" MMC tərəfindən 2014-cü ilin sonuncu ayında da əhaliyə nümunəvi xidmət göstərilmişdir. Bu dövr ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondundan 110 min 606 manat dəyərində 1319 maniqram daxil olmuş, 3 min 549 manat məbləğində rüsum toplanmışdır. Həmçinin "colvir" sistemi ilə 579 min 196 manat maniqram qəbul edilmiş, 1 milyon 132 min 870 manat maniqram ödənmiş, daxil olan beynəlxalq maniqramların dəyəri 290 manat, bu istiqamətdə ödənilən maniqramların dəyəri isə 887 manat həcmində olmuşdur. Ay ərzində muxtar respublikaya 3 min 798 sayda 24 min 990 kiloqramlıq bağlama daxil olmuş, 2 min 980 kiloqram çəkidə 441 bağlama göndərilmişdir. Ötən ilin dekabr ayı ərzində "Naxçıvanpoçt" MMC tərəfindən əhalidən abunə, şəhərlərarası danışıq haqları qismində 178 min 742 manat, elektrik enerjisi haqqı 53 min 543 manat, qazdan istifadə haqqı 1 milyon 236 min 968 manat, sudan istifadə haqqı olaraq 1612 manat vəsait toplanmışdır. Bu dövrdə POS-terminal vasitəsilə həyata keçirilən ödənişlərin həcmi 223 min 594 manat, onlayn ödənişlərin məbləği 21 min 511 manat olmuş, Dövlət Sosial Müdafiə Fondu və Yeni Azərbaycan Partiyasına üzvlük haqlarının ödənişləri də daxil olmaqla, cəmi 2 milyon 308 min 309 manat pul vəsaiti toplanmışdır.

Muxtar respublikada yüksəkkeyfiyyətli televiziya və radio yayımlarının təşkili də diqqət mərkəzində saxlanılır. IP televiziya kanallarının keyfiyyətini yaxşılaşdırmaq üçün ötən ay Şahbuz rayonunun Kükü, Babək rayonunun Gərməçataq, Şərur rayonunun Şahbulaq və Ordubad rayonunun Üstüpü kəndlərində 3 ədəd azgüclü verici qurularaq istismara verilmişdir.

Ay ərzində efirə nəzarət və radiotezliklərin qeydiyyatı şöbəsi tərəfindən müəssisə, radio-televiziyalarla və mobil operatorlarla bağlanmış müqavilələrə əsasən, muxtar respublika ərazisində radio-rabitə vasitələrinin istismarına görə nazirliyin büdcəsinə 87 min 141 manat pul vəsaiti daxil olmuşdur.

Genişzolaqlı və sürətli internet şəbəkəsinin yaradılması muxtar respublikada internet istifadəçilərinin sayının artmasına da səbəb olmuşdur. Belə ki, bəhs olunan dövrdə 327 abunəçi genişzolaqlı internetə qoşulmuş və tədris mərkəzində 178 nəfər təhsil almışdır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti üzrə nazirliyin dəstəyi ilə elektron xidmətlər işə salınmış, xidmətin rayon idarələrinə 5 min 436 metr fiber-optik kabel çəkilmiş, transmissiya avadanlığı, kompüter, printerlər alınmış, elektron sənəd mübadiləsi və elektron xidmətlərin göstərilməsi üçün müvafiq şərait yaradılmışdır.

Rabitə və yeni texnologiyaların inkişafını təmin etmək məqsədilə görülən işlər bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Qaz təsərrüfatı sahəsi 2014-cü ili uğurla başa vurmuşdur

***Muxtar respublikada yaşayış məntəqələrinin və istehsalat sahələrinin enerji və istilik təchizatı tamamilə həll olunmuşdur. Həyata keçirilən tədbirlər nəticəsində bu gün muxtar respublikanın qazlaşdırılmayan heç bir məntəqəsi qalmayıb. "Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən mütəmadi olaraq təbii qaz təchizatının yaxşılaşdırılması və etibarlılığının artırılması istiqamətində ardıcıl tədbirlər görülür. İstehlakçıların fasiləsiz və təhlükəsiz mavi yanacaqla təminatını diqqət mərkəzində saxlayan birliyin kollektivi 2014-cü ilin dekabr ayı ərzində də qarşıda duran vəzifələri uğurla yerinə yetirmişdir.***

Ötən ay ərzində 144 mənzilə və 26 digər müxtəliftəyinatlı obyektə qaz xətləri çəkilmişdir. Muxtar respublikada həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri ilə əlaqədar olaraq, müvafiq sosial obyektlərin, inzibati binaların qaz təchizatı yenidən qurulmuş, kənd yollarının genişləndirilməsi məqsədilə daşıyıcı və paylayıcı qaz kəmərlərinin yeri dəyişdirilmiş, istismarda olan kəmərlərin dayaqları bərkidilmiş, ümumilikdə, bu məqsədlə 16 min 483 paqonometr polietilen və metal boru istifadə olunmuşdur. Birliyin şəhər, rayon Qaz İstismarı idarələrinin qəza dispetçer xidmətlərinə təbii qaz istehlakçılarından daxil olmuş 1602 çağırışa əsasən vaxtında müvafiq tədbirlər görülmüşdür. Bu müddət ərzində qaz təsərrüfatı şəbəkəsində 1482 halda sızma aşkarlanaraq aradan qaldırılmış və qazın nəqli bərpa olunmuşdur.

Qış mövsümündə təbii qaza olan tələbatın artması ilə əlaqədar qaz nəqli sistemi daha artıq yüklənir və gərgin iş rejiminə keçir. Buna görə də bu dövrdə muxtar respublika ərazisində təbii qazın normal istismarını təmin etmək məqsədilə müvafiq işlər görülür. Belə ki, istehlakçılarla bağlanmış müqavilələr əsasında təzyiqin saxlanılması üzrə gündüz və gecə texnoloji rejimləri yaradılmış və sərflərin qeydiyyatının aparılması ciddi nəzarətə götürülmüşdür. Avtomat qaz paylayıcı stansiyalarda avadanlıqlara texniki xidmət işləri qrafik üzrə müəyyən olunan vaxtlarda aparılmış, qaz təsərrüfatı sahəsinin bütün istiqamətləri üzrə cari təmir işləri görülmüş, nasazlıqlar aradan qaldırılmışdır. Həmçinin maşın-mexanizmlər, qaynaq və digər avadanlıqların texniki vəziyyəti yoxlanılmış, çətin şəraitdə etibarlı istismar üçün hazır vəziyyətə gətirilmişdir.

Ötən dövr ərzində qaz təsərrüfatında yeraltı xətlərdə korroziyaya uğrayan hissələr yeni borularla əvəz olunmuş, yeraltı yüksək və ortatəzyiqli magistral qaz kəmərlərinin üzərində quraşdırılmış katod elektrokimyəvi mühafizə qurğularına vaxtlı-vaxtında nəzarət olunmuş, xətlərdəki potensial fərqi ölçülərək nəzarətdə saxlanmışdır.

2014-cü ilin dekabr ayında kadr potensialının artırılması, qaz istismarı sahəsində çalışanların ixtisas dərəcəsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi də diqqətdə saxlanılmışdır. Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər" peşəsinin növbəti IV qrupu yaradılmış və şəhər, rayon Qaz İstismarı idarələrinin bir qrup işçisi kursa cəlb olunmuşdur.

Təbii qazdan qanunsuz istifadəyə qarşı mübarizə tədbirləri həm sakinlərin təhlükəsiz yaşayışının, həm də fasiləsiz enerji təchizatının təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Ötən dövr ərzində təbii qazdan səmərəli istifadə olunması, qaz sobalarına və qızdırıcı cihazlara nəzarət edilməsi və qaz sayğaclarına müdaxilələrin aradan qaldırılması məqsədilə Qaz İstismarı idarələrinin müvafiq işçiləri tərəfindən reydlər davam etdirilmişdir. Bu istiqamətdə aparılan işlər nəticəsində 4 min 481 ədəd yararsız qaz sayğacı aşkarlanaraq istismardan çıxarılmış və yeni qaz sayğacları quraşdırılmışdır. Eyni zamanda əhali arasında maarifləndirici söhbətlər aparılmış, kütləvi informasiya vasitələrində qazdan təhlükəsiz istifadə qaydaları mövzusunda vaxtaşırı məlumatlar verilmişdir.

Muxtar respublikanın bütün yaşayış məntəqələrinin, o cümlədən istehsal sahələrinin fasiləsiz təbii qazla təminatı 2015-ci ildə də diqqət mərkəzində saxlanılacaq, əhaliyə nümunəvi xidmət göstəriləcəkdir.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

## "Beynəlxalq Yaşıl Həftə – 2015" sərgisində muxtar respublikamız da təmsil olunub

Yanvarın 16-da Almaniya Federativ Respublikasının paytaxtı Berlində qida, kənd təsərrüfatı və bağçılıq sahəsində ənənəvi "Beynəlxalq Yaşıl Həftə – 2015" sərgisi keçirilib. 1926-cı ildən başlayaraq hər il keçirilən və Avropanın ən iri sərgisi olan "Beynəlxalq Yaşıl Həftə" sərgisində dünyanın 60-a yaxın ölkəsindən 1600-dən çox şirkət iştirak edib.

Sərgi kənd təsərrüfatı və emal müəssisələrinin öz məhsullarını nümayiş etdirmək üçün ənənəvi bir forum olduğundan Azərbaycanın hər il bu sərgidə iştirak etməsi və geniş çeşiddə məhsullarını nümayiş etdirməsi də artıq ənənəyə çevrilib.

Sərgidə Azərbaycan pavilyonunda Naxçıvan Muxtar Respublikasına ayrıca guşə ayrılıb.

Kənd təsərrüfatı və yeyinti məhsullarının nümayişi, satışı, müəssisələrin imicinin formalaşdırılması, brendlərinin reklamı və eyni zamanda iştirak edən müəssisələrin kooperasiya əlaqələrinin genişləndirilməsi, yeni tərəfdaşların tapılması məqsədilə təşkil olunmuş sərgidə muxtar respublikamız 9 şirkətlə iştirak edib.

"Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının, "Babək Sirab" Açıq Səhmdar Cəmiyyətinin, "Ləzzət Qida Sənaye", "Ordubad Qənnadı Məmulatları", "Şərur-3", "Babək Şərab-7 ASK", "Farma-Şah", "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli cəmiyyətlərinin, "Nazlı" Kiçik Müəssisəsinin 12 növdə və 50 çeşiddə ərzaq məhsulları sərgidə böyük maraq doğurub.

Naxçıvan Muxtar Respublikası haqqında müxtəlif çap materialları, kataloq və şirkətlərə aid təbliğat materialları sərginin ziyarətçilərinə paylanılıb. Sərginin ilk günlərindən etibarən mineral sular, quru meyvələr, mürəbbə və spirtli içkilər iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Məlumat üçün qeyd edək ki, "Beynəlxalq Yaşıl Həftə – 2015" sərgisi yanvarın 25-də başa çatacaq.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti***

*Məhəmməd Tağı Sidqi – 160*

# Böyük maarifçi ədib və müasirlik

***Böyük mütəfəkkir ədib Məhəmməd Tağı Sidqi görkəmli bir maarifçi və tanınmış yaradıcı şəxsiyyət kimi Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafında mühüm yer tutur. Onun çoxcəhətli ədəbi-pedaqoji və elmi fəaliyyəti milli maarifçilik hərəkatının və ədəbiyyatımızın tarixində Seyid Əzim Şirvani dövrünün davamı, Abdulla Şaiq, Süleyman Sani Axundov mərhələsinin ərəfəsi və başlanğıcıdır. Beləliklə, M.T.Sidqinin çoxcəhətli fəaliyyəti maarifçi ədəbi-ictimai mühitin inkişafı tarixində xüsusi mərhələ təşkil edir. Bu mənada Məhəmməd Tağı Sidqi özündən əvvəlki maarifçi nəslin layiqli xələfi, sonrakı yaradıcı qüvvələrin isə ustadı və sələfidir. Milli maarifçiliyin məktəb, dərslik, teatr, ədəbiyyat və mətbuatın inkişafı ilə bağlı ən yaxşı ənənələri bir çox görkəmli ziyalılarla yanaşı, həm də M.T.Sidqinin adı ilə bağlıdır.***



Məhəmməd Tağı Sidqi 1854-cü ildə Ordubad şəhərində anadan olmuşdur. O, ilk təhsilini Molla Məhəmməd Tağı adlı bir axundun yanında almışdır. Sonra Şah Hüseyn Soltan mədrəsəsində oxuyan Sidqi bilik və məlumatlarını bir qədər də təkmilləşdirmişdir. Gənclik illərində qısa müddət Cənubi Azərbaycanda yaşamış, burada təhsilini dərinləşdirməklə yanaşı, ordubadlı tacirlərin yanında ticarətlə də məşğul olmuşdur. Təxminən, 1885-ci ildə İrandan Ordubada qayıtmışdır. 10 ilə yaxın bu şəhərdə yaşamış, maarifçilik və bədii yaradıcılıqla məşğul olmuşdur. Onun ailəsini dolandırmaq üçün açdığı çayxana yerli ziyalıların əsas ictimai müzakirə meydanına çevrilmişdir. Oğlu, tanınmış publisist və tərcüməçi Məmmədəli Sidqi Səfərov 5 fevral 1951-ci ildə yazdığı "Tərcümeyi-halım" adlı avtobioqrafik xarakterli xatirəsində atasının çayxanasını aşağıdakı kimi səciyyələndirmişdir: "O zaman atamın çayçı dükanı Ordubad ziyalılarının yığıncaq yeri olur... Haman çayçı dükanında Sədi, Hafiz, Firdovsi, Nizami Gəncəvi kimi şairlərin şeirləri oxunur və təhlil olunurmuş. Eyni zamanda atam o zaman İrandan, Rusiyadan və Türkiyədən qəzetlər də alıb oxuyarmış... Bu qəzetlər çox zaman atamın həmməsləkləri arasında gizlində oxunarmış. Çünki avam camaat qəzet oxumağı böyük günah və qəzet oxuyanları kafir... hesab edirdi".

1892-ci ildə açıqfikirli, rus və Avropa mədəniyyətinə dərin rəğbət bəsləyən Hüseyn Sultan Kəngərlinski ilə birlikdə Ordubad şəhərində açdığı "Əxtər" adlı yeni üsullu məktəblə M.T.Sidqi pedaqoji fəaliyyətə başlamışdır. Şəriət fənnindən başqa, ana dili, hesab, coğrafiya dərslərinin milli dildə keçirildiyi bu məktəbdəki səmərəli məktəbdarlıq işləri onu daha da məşhurlaşdırmışdır. "Əxtər" məktəbinin şagirdi M.S.Ordubadi həmin tədris müəssisəsini "gələcək üçün üsulicədid müəllimləri hazırlayan" ciddi təhsil ocağı adlandırmışdır.

Təcrübəli müəllimin pedaqoji fəaliyyəti Naxçıvan ziyalılarının diqqətini cəlb etmişdir. O, 1894-cü ildə Naxçıvan şəhərinə dəvət olunub "Tərbiyə" məktəbinin əsasını qoymuşdur. "Məktəbi-Tərbiyə"də dünyəvi elmlərin tədrisinə ciddi fikir verilmiş, rus dili və ədəbiyyatı da öyrədilmiş, tərcümə dərsləri təşkil olunmuşdur. "Tərbiyə" məktəbi Azərbaycan məktəbi tarixində ilk milli məktəblərdən biridir. Məsələnin bu cəhəti vaxtilə Cəlil Məmmədquluzadənin də diqqətini cəlb etmiş və o, "Tərbiyə" məktəbindən bəhs edərkən "Naxçıvan şəhərində haman məktəbi həzrəti-Sidqi təsis edən zaman belə qaydalı müsəlman mədrəsəsi nəinki İrəvanda, bəlkə Qafqazın böyük müsəlman şəhərlərinin çoxunda yox idi" qənaətinə gəlmişdir. M.T.Sidqinin səyi nəticəsində az vaxtda "Tərbiyə" məktəbi ədəbi-mədəni fikrin əsas mərkəzlərindən birinə çevrilmişdir. Cəlil Məmmədquluzadə, Qurbanəlibəy Şərifzadə, Cümşüd-Paşa Sultanov, Mirzə Nəsrulla Əmirov, Əbülqasım Sultanov, Mirzə Cəlil Şürbi, Mirzə Ələkbər Süleymanov və başqaları burada Sidqinin elmi-ədəbi söhbətlərinə qulaq asmış, şeirlərini dinləyib müzakirə etmiş, Rusiya, Qafqaz və Şərq mətbuatını mütaliə etmək imkanı qazanmışlar. Məktəbdə qabaqcıl ziyalıların iştirakı və təşəbbüsü ilə teatr tamaşaları göstərilmiş, ədəbi müsabiqələr, müzakirə və yubiley gecələri təşkil olunmuşdur. Buna görədir ki, böyük demokrat ədib Cəlil Məmmədquluzadə "Tərbiyə" məktəbini "yeniyetmə müəllim və ədiblər üçün darülürfan", yəni universitet kimi qiymətləndirmişdir. Hüseyn Cavid məktublarında bu məşhur məktəbin yaradıcısı M.T.Sidqiyə "böyük ustad və cəlallı atamız" deyə müraciət etmişdir. N.Nərimanov, S.M.Qənizadə, F.Köçərli, R.Əfəndiyev, Ə.Axundzadə, Ə.Cəfərzadə kimi görkəmli maarifçi ziyalılar M.T.Sidqi və onun "Tərbiyə" məktəbinin fəaliyyəti ilə maraqlanmış, ədəbi-pedaqoji ideyalarına rəğbət bəsləmiş, yüksək qiymət vermişlər. Yeni maarifçi gəncliyin böyük bir nəsli "Tərbiyə" məktəbindən çıxmışdır. Sonralar görkəmli yazıçı, şair, alim, publisist, sənətşünas, aktyor kimi tanınmış Hüseyn Cavid, Əziz Şərif, Əliqulu Qəmküsar, Rza Təhmasib, pedaqoq Əli Səbri Qasımov, Ələkbər Abbasov, Məmmədəli Səfərov, Əbülqasım Sultanov, Xəlil Hacılarov və onlarla başqaları kimi tanınmış simalar Məhəmməd Tağı Sidqi müəllimin məktəbinin təkcə məzunları yox, həm də ardıcılları idilər. Faydalı olduğunu nəzərə alaraq, Məhəmməd Tağı Sidqi tərəfindən 1901-ci ildə hazırlanmış "Məktəbi-Tərbiyə" şagirdlərinin "Fehrist dəftəri"ni olduğu kimi təqdim etməyi zəruri hesab edirəm:

**Mübtədi şagirdlərin isimləri**

*Birinci sinfin birinci şöbə şagirdlərinin isimləri və qiymətləri*

1. Əxlaq
2. İlahiyyat elmi və şəriət qaydaları
3. Türk dili
4. Xəttatlıq, hüsnxət

1. Ələkbər Namazzadə – 5, 3, 3, 3
2. Bəhlul Xəlilzadə – 5, 3, 3, 3
3. Yusif Əlizadə – 5, 4, 4, 4
4. Yusif Bağırzadə – 5, 4, 4, 4
5. **Abbasqulu Rasizadə – 5, 4, 4, 4**
6. Heydər Pirməhəmmədzadə – 5, 4, 4, 3
7. Həsən Qəmbərzadə – 5, 3, 3, 3
8. **Bəhlul ağa Kəngərli – 5, 3, 4, 3**
9. Məhəmməd Tağı Hacı Məhəmmədzadə – 5, 5, 4, 4
10. **Həsən Şeyxzadə – 5, 3, 3, 3**
11. Hüseynəli Heydərzadə – 5, 4, 3, 3
12. Əsəd Şatırzadə – 5, 3, 3, 3
13. **Əliqulu Rasizadə – 5, 4, 3, 3**
14. Məmməd Məmmədzadə – 4, 3, 3, 3
15. Yusif Sadıqzadə – 5, 3, 3, 3
16. **Abbas Rzazadə – 5, 4, 4, 4**
17. **Süleyman ağa Kəngərli – 5, 4, 4, 4**
18. Kərim ağa Allahverdizadə – 5, 4, 4, 4
19. Mirzəli Əlizadə – 5, 3, 3, 3
20. Abbas Abbaszadə – 5, 3, 3, 4
21. **Ələkbər Abbaszadə – 5, 3, 3, 3**
22. **Cabbar Əmirzadə – 5, 4, 4, 4**
23. **Xəlil ağa Hacılarzadə – 5, 4, 4, 4**
24. **Vəliqulu bəy Kəngərli – 5, 4, 4, 3**
25. **Möhsün Möhsünzadə – 5, 3, 3**
26. Mir Ələkbər Mirzadə – 5, 3, 3
27. Əlibəy Əzimbəyzadə – 5, 3, 3
28. **Hüseyn ağa Kəngərli – 5, 3, 3**
29. Məşədi Zeynalabidin Əhmədzadə – 5, 4, 3
30. Mahmud Kərbəlayi Əhmədzadə – 5, 4, 4
31. İsmayıl Şeyxzadə – 5, 3, 3
32. Həbib İsmayılzadə – 5, 4, 4
33. Məşədi Əli Dayızadə – 5, 4, 4
34. Müseyib Məmmədzadə – 4, 3, 3
35. Məhəmməd Rəhimzadə – 5, 4, 4
36. Tağı Fərraşzadə – 5, 3, 3
37. **Fərman Paşa Kəngərli – 5, 4, 4**
38. Ağa Mirkərim Mirsalehzadə – 5, 3, 3
39. **Əbdülqasım Sultanov – 5, 4, 4**
40. Əsgər Şatırzadə – 5, 3, 3
41. Heydər Qasımzadə – səbəbsiz gəlməmişdir
42. **Rza Təhmasib Bəyzadə – 5, 3, 3**
43. Həbib Müzəffərzadə – 5, 3, 3
44. Məşədi Əli Hamamçızadə
45. **Əli Səbri Qasımov**
46. **Məhəmmədəli Sidqizadə**
47. **Əliqulu Nəcəfov**
48. **Hüseyn Rasizadə**
49. **Ələkbər Məmmədquliyev**
50. **Əli Qasımov**

Böyük pedaqoq M.T.Sidqi Azərbaycan məktəbi və pedaqoji fikri tarixində ilk dəfə olaraq rəhbərlik etdiyi məktəbin daxili nizamnaməsini və nümunəvi hesabatlarını hazırlamışdır. Sidqi tərəfindən tərtib edilmiş "Məktəbli üçün yaddaş", "Məktəbi-Tərbiyə" şagirdlərinin tapşırıqları" kimi əhəmiyyətli sənədlərdə ümumən məktəbin, müəllimin cəmiyyətdəki yeri və mövqeyi və vəzifələri, xüsusən yeni nəslin tərbiyələndirilməsinin əsas prinsipləri və vəzifələri öz əksini tapmışdır. Öz dövründə məktəb şagirdləri üçün nümunəvi qaydalar kimi ciddi marağa, böyük əks-sədaya səbəb olan həmin yaddaş və tapşırıqlar indiki dövr üçün də əhəmiyyətlidir. Bəzi örnəklərə nəzər salaq.

**"Məktəbi-Tərbiyə" şagirdlərinin tapşırıqları**

1. Şagirdlərdən hər birisi dərs günlərində əmri-zəruri və kari-vacibi cəhətinə məktəbə gəlməsə, gərəkdir həmin gün və ya o günün sabahı öz atasının və ya vəlisinin tərəfindən məktub ilə müəllimə məlum eləsin.

2. Dərs əsnasında bir-birinin kitabına, dəftərinə baxmaq və yoldaşı ilə danışmaq və yoldaşının səhvini gizli demək mövcibi-tənbih və toqifdir.

3. Bir-birinin kitabın, dəftərin, qələmin, qələmdanının və sair təlim şeylərini qaralamaq, cırmaq, sındırmaq, töküb-dağıtmaq, oğurlayıb satmaq barəsində hər kəs cəsarət etsə, toqifitam cəzasını alacaqdır.

4. Məktəbin divarlarını yazmaq, cırmaq, qaralamaq, qara lövhə, stol, skameyka, qapı və akoşkaları bıçaq ilə kəsmək və sair bu növ qaydasız hərəkətlərlə hər bir şagird iqdam etsə, layiqincə tənbih olunacaqdır.

5. Papiros və tənbəki çəkmək bilmərrə qadağan olunur. Bu əmələ cəsarət edənlərə tənbihi-səxt olunacaqdır.

Pedaqoji fəaliyyətlə yanaşı, publisistika ilə də məşğul olan M.T.Sidqi Baxçasarayda çıxan "Tərcüman", Kəlküttədə nəşr edilən "Həblül-mətin", Tehranda çap olunan "Əxtər", Tiflisdə yayılan "Şərqi-Rus", Bakıda fəaliyyət göstərən "Kaspi" qəzetləri ilə yaxından əlaqə saxlamış, həmin mətbuat orqanlarında məqalələrlə çıxış etmiş, "əsl mənada qəzetçi" (Ə.Mirəhmədov) kimi tanınmışdır. Onun "Qəzet, yainki qəzetə nədir?", "Təəssüf, yenə təəssüf" kimi məqalələri yeni dövr Azərbaycan publisistikasının dəyərli nümunələrindəndir.

M.T.Sidqi hələ Ordubadda yaşadığı illərdə buradakı "Əncüməni-şüəra" ədəbi məclisinin ən fəal iştirakçılarından və rəhbərlərindən biri olmuş, klassik üslubda yazdığı lirik şeirləri ilə tanınmışdır. XIX əsrin axırlarından etibarən cəmiyyət həyatında müşahidə olunan canlanma, dirçəliş, məktəbdarlıqla əlaqədar yeyəlendiyi maarifçi ideyalar onun qəzəllərinə ictimai məzmun gətirmişdir. O təkcə aşiqanə məzmunu deyil, ictimai mətləbləri də klassik üslubda yazdığı şeirlərində mənalandırmağı bacarmışdır.

Böyük müəllim, görkəmli pedaqoq kimi şöhrət qazanan M.T.Sidqi həm də tanınmış uşaq yazıçısıdır. Onun qələmindən çıxmış uşaq ədəbiyyatı nümunələrində mütərəqqi maarifçi ideyalar öz əksini tapmışdır. Məktəbə və elmə rəğbət, müəllimə hörmət, yeni nəslin tərbiyəsi, insanı və cəmiyyəti dərk etməyə çağırış maarifçi yazıçının əsərlərində qabarıq şəkildə ifadə olunur. M.T.Sidqi uşaq ədəbiyyatının müxtəlif janrlarında maraqlı bədii əsərlər yazmışdır. M.T.Sidqinin nəsihətləri oğlu Məmmədəlinin timsalında yeni nəslə poetik xitab formasında yazılmışdır. M.T.Sidqinin "Oğlum Məmmədəliyə nəsihət" şeirindəki maarifçi-poetik düşüncələr geniş mənada gənc nəsillər üçün faydalı öyüdnamələrdən yoğrulmuşdur:

*Nə qədər ki var əlində fürsət,*
*Dərsinə eylə hər zaman diqqət.*
*Yetişibdir zəmani-elmü ədəb.*
*Mənzilin eylə guşeyi-məktəb,*
*...Dini-dünyanı elm edər abad,*
*Özünü eylə cəhldən azad.*
*Ruzigarın keçirmə qəflətlə,*
*Elm təhsil elə diqqətlə.*

Şairin "zəmani-elmü ədəbin" yetişdiyindən müjdə gətirən maarifçi şeirləri uşaq poeziyamızın S.Ə.Şirvani dövrünün davamı, A.Səhhət, M.Ə.Sabir, A.Şaiq mərhələsinin ərəfəsidir, bu mərhələlər arasında etibarlı körpüdür. M.T.Sidqinin maarifçi şeirləri indiki ibtidai məktəb dərsliklərində də özünəməxsus yer tutmağa layiqdir.

Azərbaycan uşaq ədəbiyyatının əsas janrlarından olan mənzum hekayət janrı da M.T.Sidqinin "Kəblə Nəsir" əsərinin timsalında yeni ənənələrlə zənginləşdirilmişdir. Belə ki, Q.Zakir və S.Ə.Şirvaninin mənzum hekayələrində təsvir olunan ibrətamiz əhvalat finalda yığcam əxlaqi-tərbiyəvi mühakimələrlə yekunlaşmışdır. "Kəblə Nəsir" isə iki müstəqil hissədən ibarətdir: isfahanlı dəlləyin başına gələn əhvalatın təqdimi və şərhi. Əhvalatın təqdimində klassik mənzum hekayələrin xüsusiyyətləri özünü göstərir. Burada qədim zamanlarda baş vermiş ibrətamiz bir hadisə nağıl edilir. Məlum olur ki, usta Əmir kişinin oğlu dəllək Kəblə Nəsir səfərə çıxan zaman öz avamlığının ucbatından ulağını və keçisini oğruların güdazına verir. Hələ bu azmış kimi, yolda oğrulardan biri onu aldadıb, guya itirmiş qiymətli daş-qaşlar aşkar etmək məqsədilə quyuya saldırır, paltarlarını götürüb aradan çıxır. "Kəblə Nəsir" mənzum hekayəsinin şərhlər hissəsində isə şair təqdim etdiyi hadisəni həm həyati mövqedən, həm də maarifçi baxımdan aydınlaşdırmağa və yekunlaşdırmağa çalışmışdır. Burada "Kəblə Nəsir"in həyati qayəsinin əsasında dayanan "bir gözəl ad qalır cahanda nişan" misrasının aşıladığı ideya-məzmun hekayətin maarifçi istiqaməti vasitəsilə daha da dərinləşdirilmişdir:

*Ta ki millətdə olsun istiqlal,*
*Etməsin cəhl bizləri pamal.*
*Olmasın ömrümüz cahanda tələf,*
*Elm təhsilinə edək məsrəf.*
*Aç bu əbnayi-millətə məktəb,*
*Orda təhsil olunsun elmü ədəb.*
*Zikri-xeyr ilə bəlkə yad olasan,*
*Dinü dünyada qəlbi şad olasan.*

"Kəblə Nəsir" mənzum hekayəti təkcə ideya məzmununa görə deyil, forması, quruluşu etibarilə də orijinal xüsusiyyətlərə malikdir. Çünki həmin poetik mənzumə bədii forma etibarilə məktəbdə təşkil olunmuş mənalı bir dərsin imkanlarını və xüsusiyyətlərini özündə cəmləşdirir. Bu "dərsdə" şair özü də müəllim sifətində iştirak edir. Təkcə müəllif – M.T.Sidqi deyil, onun canlandırdığı bədii obraz da XIX əsrin son rübü üçün səciyyəvi olan müəllim-yazıçı tipinin qabarıq nümayəndəsi kimi diqqəti cəlb edir. Təlimlə tərbiyəni, biliklə əxlaqı vəhdətdə aşılamağı qarşısına məqsəd qoyan şair-müəllim öz şagirdlərini "zəmanədə bir ad", nişanə qoymaq nümunəsində tərbiyə etməyə səy göstərir.

*Keçəcəkdir tamam yaxşı-yaman,*
*Bir gözəl ad qalar cahanda nişan.*
*Ömür bihudə keçməmiş bada,*
*Biz də bir ad qoyaq bu dünyada.*
*... Millətin haqqını əda eylə,*
*Məscidi-mədrəsə bina eylə.*

M.T.Sidqi milli uşaq nəsrinin də ilk nümunələri sayıla biləcək kiçik hekayələr yazmışdır. Lakin onun hekayələrindən elmi şəkildə söz açılmamışdır. M.T.Sidqinin uşaqlar üçün hekayələri, əsasən, "Əxlaq nümunələri" və "Qızlara hədiyyə" dərsliklərində toplanmışdır. "Əxlaq nümunələri" dərsliyindəki əksər uşaq hekayələri müəllim-yazıçının pedaqoji düşüncələrinin tərkibində verilmişdir. Həmin hekayələr müəllifin maarifçi baxışlarını əyani şəkildə əsaslandıran bədii yazılardır. Lakin imla mətni kimi verilmiş nümunələrdən pedaqoji fikir-mülahizə qatını ayırıb, hekayə hissəsini ayrıca oxuduqda bunlar bitkin uşaq hekayələri kimi səslənir. "Məktəbə davam", "Gözü tox olan uşağın hekayəti", "Yalançı uşaq" və sair hekayələr bu qəbildən olan maraqlı ədəbi nümunələrdir. Dərsliyin tələblərinə uyğun olaraq, həmin hekayələrdə əxlaqi məsələlər ön mövqeyə çəkilmişdir. "Qızlara hədiyyə" dərsliyindəki hekayələrin böyük əksəriyyətində isə hekayəyə məxsus xüsusiyyətlər maarifçi-pedaqoji mülahizələri üstələmişdir. Bunların çoxu indiki ibtidai məktəb dərsliklərinə salınmış kiçik hekayələr kimi sadə dildə yazılmış, yığcam, maraqlı hadisələri əks etdirən, əxlaqi-tərbiyəvi qənaətlər aşılayan yaddaqalan müstəqil bədii əsərlərdir. Dərslikdəki "Rübabə", "Sitarə ilə xalası", "Ruqiyyənin söhbəti", "Övlad məhəbbəti" və sair hekayələr milli uşaq nəsrinin ilk bitkin nümunələridir. İdeya-məzmununa görə bunları "məktəb hekayələri" kimi də dəyərləndirmək olar. Forma baxımından isə həmin nümunələr miniatür hekayə adlandırıla bilər. Təxminən bir əsrə yaxın bundan əvvəl hazırlanmış "Qızlara hədiyyə" dərsliyindəki kiçik hekayələr hazırkı mərhələdə də şagirdlər üçün faydalı xüsusiyyətlərə malikdir. Məsələn, "İki bacının söhbəti" hekayəsində əks etdirilmiş aşağıdakı nəsihətlər bu gün üçün də müasir səslənir: "Balaca bacım, sən hələ kiçiksən. Elmin məzyətini və faydasını bilmirsən. Elə bil ki, dünyada heç bir şey elmsiz əmələ gəlməz... İnsanın hər işində və əməlində elmə ehtiyac vardır. İnsanın şərafəti və heyvan ilə insanın təfavütü elm ilə bilinir. Sən elm təhsil elə, təki dünya və axirətdə səadətmənd olasan".

Ardı 4-cü səhifədə

Maarifçi şair və yazıçı olmaqla yanaşı, M.T.Sidqi həm də tanınmış alim-pedaqoq, əxlaq nəzəriyyəçisi və görkəmli məktəbşünasdır. Bununla belə, onun elmi fəaliyyətində ədəbi-fəlsəfi məsələlər də öz əksini tapmışdır. Sidqinin "Heykəli-insana bir nəzər" əsəri nəsrlə yazılmış kiçik ədəbi-fəlsəfi traktatdır. Burada müəllifin həyat və cəmiyyət, ictimai-mədəni tərəqqi haqqındakı fikir və düşüncələri əks etdirilmişdir. Sidqinin insanın formalaşması və bəşər cəmiyyətinin keçdiyi inkişaf mərhələləri barədəki elmi mülahizələri öz dövrü üçün yeni və cəlbedici idi. Buna görə də həmin əsər M.T.Sidqinin vəfatından sonra 1912-ci ildə Bakıda "Ziya" mətbəəsində kitab halında çap olunmuşdur.

M.T.Sidqinin elmi irsində onun "Puşkin" adlı kitabı xüsusi yer tutur. Bu kitab müəllim-şairin 26 may 1899-cu il tarixdə Naxçıvanda "Tərbiyə" məktəbinin pedaqoji kollektivi və şəhər ictimaiyyətinin nümayəndələri qarşısında A.S.Puşkinin anadan olmasının 100 illik yubileyi münasibətilə oxuduğu məruzənin mətnindən ibarətdir. Əsər Azərbaycanda Puşkinə həsr olunmuş ilk elmi mənbələrdən biri kimi mühüm əhəmiyyətə malikdir. Kitab 1914-cü ildə Bakıda İsabəy Aşurbəylinin "Kaspi" mətbəəsində çap olunmuşdur. Adından da göründüyü kimi, "Puşkin" kitabında rus ədəbiyyatının ən görkəmli nümayəndələrindən olan A.S.Puşkinin həyatı və yaradıcılıq yolu işıqlandırılmışdır. M.T.Sidqi Puşkinin ədəbi xidmətlərinə yüksək qiymət vermişdir: "Zəkavətli A.S.Puşkin rus şairlərinin hamısından sahibi-imtiyaz və cümləsindən sərəfraz və süxənpərdaz hesab olunur".

Kitabda Puşkinin həyatı və fəaliyyəti onun sələfləri və müasirləri ilə əlaqəli şəkildə dəyərləndirilmişdir. Burada rus ədəbiyyatının görkəmli nümayəndələrindən N.M.Karamzin, İ.A.Krılov, A.S.Qriboyedov, M.Y.Lermontov və başqaları haqqında da məlumat verilmiş, Puşkinin yaradıcılığında geniş yer tutan Qafqaz mövzusuna da toxunulmuşdur. M.T.Sidqinin məruzəsində deyilir: "Qafqazın fərəhfəza həvası və mənzəreyi-dilguşası Puşkini özünə valeh və heyran eylədi. Odur ki, Puşkin Qafqaz dağlarına şairlik nöqteyi-nəzərindən baxıban bir neçə müəssər və ibrətəngiz şeirlər inşad edibdir ki, o şeirləri oxuyub dəryaft edən əhli-zövq Puşkinin süxənfərin (ustad –İ.H.) olmağını ... etiraf eylər".

"Puşkin" əsəri ilə Sidqi həm də ciddi, səriştəli bir ədəbiyyatşünas olduğunu isbat etmişdir.

Sidqinin elmi irsində "Müxtəsər coğrafiya risaləsi" əsərinin xüsusi yeri vardır. Xalq müəlliminin hələ XIX əsrin sonlarında böyük çətinliklə coğrafi məlumatları toplayıb sistemləşdirməsi, müstəqil bir dərslikdə əks etdirməsi mütərəqqi elmi hadisədir. Onun hazırladığı "Müxtəsər coğrafiya risaləsi" Azərbaycanda ilk coğrafiya dərsliyidir. Bu dərslik Sidqinin həm də yüksək hazırlıqlı və məlumatlı bir coğrafiyaşünas olduğunu da isbat edir.

Müşahidələr göstərir ki, M.T.Sidqi nəinki Naxçıvanda, Azərbaycanın hər yerində, İranda, Cənubi Qafqazda və Krımda, hətta Misirdə və Hindistanda belə tanınmış, hörmət və nüfuz qazanmışdır. Cəlil Məmmədquluzadə kimi qüdrətli bir sənətkarın M.T.Sidqiyə özünün "barmaq ilə göstərilən", "adı zərbül-məsələ" çevrilən mənəvi rəhbəri kimi qiymət verməsi yüksək səviyyənin göstəricisidir. O təkcə Naxçıvan ədəbi-ictimai mühitində deyil, Azərbaycanda, hətta Cənubi Qafqazda söz sahibi olan böyük maarifçi mütəfəkkir kimi qəbul olunmuşdur. Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, İsmayılbəy Qaspıralı, Məhəmmədağa Şahtaxtlı, Əlimərdanbəy Topçubaşov, Soltanməcid Qənizadə, Əhmədbəy Ağayev, Rəşidbəy Əfəndiyev və başqaları kimi görkəmli şəxslərlə məktublaşması, məsləhətləşməsi, fikir mübadiləsi aparması Sidqinin geniş dairədə dərk və qəbul olunduğunu, dəyərləndirildiyini təsdiq edir.

M.T.Sidqi 1903-cü ilin dekabr ayında vəfat etmiş və Naxçıvan şəhərində dəfn olunmuşdur. Görkəmli ziyalılardan C.Məmmədquluzadə, M.S.Ordubadi, H.Nəcəfzadə və başqaları o vaxt Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Şərqi-Rus" qəzetində Sidqinin vəfatına həsr olunmuş nekroloq, müxtəlif şeirlər, məqalə və məktublar dərc etdirmişlər. C.Məmmədquluzadənin "vida sözü"ndə M.T.Sidqinin maarifçilik hərəkatındakı əvəzsiz xidmətləri ehtiramla yad olunmuş, ədəbi portreti canlandırılmışdır: "Mərhumun şəxsi sifətləri misilsiz idilər: təmkinli, mömin, sadiq, sakit, xoşəhval, rəhmdil və xeyirxah. Gözəl-gözəl xasiyyətlər Sidqini Naxçıvanda zərbül-məsəl eləmişdilər. O hörmət və məhəbbəti ki, camaatımız mərhuma göstərirdi, – indiyə kimi heç bir şəxsə göstərməyib... Küçə və bazarda Sidqini barmaq ilə göstərirdilər. Mərhumun vəfatı günü çox kişilər göz yaşı töküb. Cənazəsini dəfn eləməyə gedən camaatı küçələr tutmurdu və yəqinül-yəqin, bu camaatın hamısı başını aşağı dikib qəlbində deyirdi: "Getdi cahandan həzrəti-Sidqi, yüz min heyf, yüz min əfsus!"

Görkəmli pedaqoq və maarifçi yazıçı M.T.Sidqinin həyatı, pedaqoji fəaliyyəti və yaradıcılıq yolu müəyyən səviyyədə öyrənilmişdir. Vaxtilə İbrahim Mollayev ədibin pedaqoji görüşləri və məktəbdarlıq fəaliyyətindən, Yavər Eyvazov ədəbi-publisist yaradıcılığından namizədlik dissertasiyaları müdafiə etmişlər. Bir çox görkəmli alimlərin – Feyzulla Qasımzadə, Məmməd Cəfər Cəfərov, Əziz Şərif, Firidun Köçərli, Abbas Zamanov, Əziz Mirəhmədov, Kamal Talıbzadə, Bəkir Nəbiyev, Şıxəli Qurbanov, Qulam Məmmədli, Xeyrulla Məmmədov, Şamil Qurbanov, Lətif Hüseynzadə, Əsgər Qədimov, Fərman Xəlilov, Rüfət Hüseynzadə, Şövqü Novruzov, Mirabbas Aslanov və başqalarının monoqrafik tədqiqatlarında və məqalələrində M.T.Sidqidən bəhs olunmuşdur. Bununla belə, fikrimizcə, M.T.Sidqinin həyatı və fəaliyyətinin tam halda, bütün yönləri ilə tədqiq olunmasına ehtiyac vardır.

Möhtərəm ədibin əsərlərinin nəşri sahəsində də müəyyən işlər görülmüşdür. Məşhur ədəbiyyatşünas F.Köçərli 1911-1914-cü illərdə Qoridən Məmmədəli Sidqiyə göndərdiyi məktublarında atası Sidqinin əsərlərini "Millət malı" etmək üçün bunları toplayıb nəşr etdirməyi vacib saymışdır. Məmmədəli Sidqi Səfərov (1888-1956) böyük maarifçinin "Kəblə Nəsir" (1910), "Heykəli-insana bir nəzər" (1912), "Puşkin" (1914) əsərlərini ayrıca kitab halında nəşr etdirmişdir. "Kəblə Nəsir" mənzum hekayəti "Azərbaycan uşaq ədəbiyyatı antologiyası"na daxil edilmişdir. 1967-ci ildə isə görkəmli pedaqoqun "Seçilmiş pedaqoji əsərləri" (Mirabbas Aslanov) nəşr olunmuşdur. "Məktəb hekayətləri" (1996) kitabında (İsa Həbibbəyli) böyük ədibin uşaq hekayələri və elmi-ədəbi irsindən nümunələr toplanılmışdır. Artıq Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunun fondunda və müxtəlif arxivlərində saxlanan materiallar əsasında maarifçi ədibin "Əsərləri" kitabı (toplayanı, tərtib edəni və ön sözün müəllifi İ.Həbibbəyli) da 2004-cü ildən oxucuların istifadəsindədir. Ümid edirik ki, görkəmli maarif xadimi, böyük mütəfəkkir, maarifçi ədib Məhəmməd Tağı Sidqi haqqında müstəqillik işığında sanballı elmi əsərlər meydana çıxacaq, onun gələcək külliyyatları yeni axtarışların sayəsində daha da zənginləşdiriləcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun görkəmli maarifçi şair və böyük pedaqoq Məhəmməd Tağı Sidqinin anadan olmasının 160 illik yubileyi ilə əlaqədar imzaladığı 20 avqust 2014-cü il tarixli Sərəncamda böyük mütəfəkkirin genişmiqyaslı xidmətləri yüksək qiymətləndirilmiş, maarifçi ədibin çoxcəhətli fəaliyyətinin müasirlik imkanlarına xüsusi diqqət yetirilmişdir: "Məhəmməd Tağı Sidqi... Azərbaycan uşaq ədəbiyyatının və poeziyasının inkişafında mühüm xidmətlər göstərmiş, maarifçi-realist ədəbiyyatın yaradıcılarından biri kimi ədəbiyyat tariximizdə öz yerini tutmuşdur. Görkəmli pedaqoqun qələminin məhsulu olan uşaq nəsrinin ilk mükəmməl nümunələri, ədəbi-fəlsəfi traktat, poeziya və tərcümə materialları Azərbaycanda maarifçi ədəbiyyatın inkişafında mühüm rol oynamışdır".

Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Məhəmməd Tağı Sidqinin Ordubad şəhərində anadan olduğu qədim binada ev-muzeyinin yaradılması haqqında 17 sentyabr 2014-cü il tarixdə imzaladığı Sərəncam əsasında həmin mədəniyyət ocağının qurulması prosesi atrıq tamamlanmaq üzrədir. Məhəmməd Tağı Sidqinin anadan olmasının 160 illik yubileyi Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilmiş, müasir mərhələdə yeni maarifçilik ideyalarının milli əsaslar üzrə genişləndirilməsinə təkan vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin M.T.Sidqiyə həsr etdiyi "Naxçıvan" jurnalında, AMEA Naxçıvan Bölməsinin "Taleyi və sənəti" kitabındakı sanballı məqalələr böyük maarifçi ədibdən söz açan yeni tədqiqatları özündə əks etdirir. Ordubad şəhərində M.T.Sidqinin adını daşıyan məktəbin əsaslı şəkildə yenidən qurulması və müasir texnologiya ilə təchizi klassik maarifçilik ənənəsinin müasirləşdirilməsi deməkdir. M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının inkişaf etdirilməsi yeni maarifçi dövrün nailiyyətidir.

Böyük ədib və ictimai xadim Məhəmməd Tağı Sidqi maarifçi ideyaları və əsərləri ilə, meydana çıxardığı işıqlı ideyalarla, əsərlərinin və ideyalarının müasirlik imkanları ilə yaşayır və müstəqillik dövrü Azərbaycanın yeni maarifçilik hərəkatına, uşaq ədəbiyyatının, maarifçi şeirin inkişafına xidmət edir.

**İsa HƏBİBBƏYLİ**
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin deputatı, akademik***
***"Azərbaycan" qəzeti, 14 yanvar 2015-ci il***

*Tariximizin daş yaddaşı*

# Qiymətli tapıntı

***Akademik İ.İ.Meşşaninovun "yeraltı muzey" adlandırdığı Naxçıvanın ərazisi müxtəlif-yinatlı tarixi-mədəni abidələrlə zəngindir. Bu abidələr içərisində tariximizin təhrif olunmamış mənbələrindən sayılan epiqrafik abidələr – kitabələr xüsusi yer tutur.***





Biliyimizi yeni faktlarla zənginləşdirən, orta əsr mənbələrinin məlumatlarını tamamlayan bu orijinal mənbələrin bir hissəsi zəmanəmizədək müəyyən qədər aşınmış, bir qismi salamat vəziyyətdə gəlib çatmış, çox hissəsi isə yazıldığı andan sonra təbii qüvvələrin (isti, soyuq, yağış, qar, külək və sair) təsirindən məhv olaraq sıradan çıxmış, bəziləri torpağın altında qalaraq diqqətdən yayınmış, itib batmışdır. Belə abidələrdən biri bu yaxınlarda Şahbuz rayonundakı Şahbuzkənddə təsadüfən aşkar olunmuşdur. Təsərrüfat işləri aparılarkən torpağın altından bir ədəd sənduqətipli qəbirüstü xatirə abidəsi tapılmışdır. Qaramtıl rəngli dağ daşından hazırlanmış bu abidə orta əsr bədii daşyonma sənətinin təkrarolunmaz, gözəl bir nümunəsidir. Abidənin yan tərəfində ərəb dilində, iki sətirdə dəfn olunan mərhumun xatirəsinə həsr edilmiş kitabə var. Əvvəli "Allah, Məhəmməd, Əli" kəlamları ilə başlayan kitabənin mətnindən aydın olur ki, qəbrin sahibi hicri-qəməri təqvimi ilə 965-ci ilin rəbiüləvvəl ayında (miladi ilə 1558-ci ilin yanvar ayı) vəfat etmiş Məlik Vəlxandır.

Göründüyü kimi, xatirə abidəsi 1558-ci ildə vəfat etmiş Məlik Vəlxanın xatirəsinə hazırlanmışdır. Kitabədə mərhum Vəlxan "Məlik" titulu ilə təqdim olunmuşdur. İslamın müqəddəs kitabı "Qurani-Kərim"də "Məlik" hökmdar mənasında, eyni zamanda Allahın adlarından biri kimi işlənmişdir. Xarəzmşah Anuştəkin dövlətində isə bu titul bölmə komandirlərinə verilirdi. XIII əsrdən etibarən Azərbaycanda işlənməyə başlayan, orta əsrlər zamanı müxtəlif mənə tutumuna malik olan "Məlik" titulu Səfəvilər və xanlıqlar dövründə, əsasən, iki mənada işlənirdi. Bu titulla, ilk növbədə, şah hakimiyyətinə tabe olan yerli hakimlərin xələflərinə – kiçik feodallara müraciət edilirdi. İkinci mənada isə bu titul kənd və ya kənd qruplarının başçılarına verilirdi. Bu mənada işlənən "Məlik" titulu kəndxuda termini ilə, təxminən, eynilik təşkil edirdi .

"Məlik" titulu haqqında bəhs edərkən professor İ.Petruşevski qeyd edir ki, inqilaba qədərki tarixşünaslığın nümayəndələri məlikləri erməni feodallarının nümayəndələri kimi baxırdılar. Bu baxış yanlışdır. Sahibkar məliklər müsəlmanlarda Xəzərsahili ölkələrdə XIII-XV əsrlərdən, Səfəvilər və xanlıqlar dövründən məlumdur. Buradan aydın olur ki, "Məlik" titulu azərbaycanlılara məxsus olmuşdur. "Məlik" titulu göstərir ki, xatirəsinə bu cür gözəl qəbirüstü xatirə abidəsi düzəldilmiş Vəlxan yaşadığı dövrdə müəyyən mövqe və nüfuz sahibi olmuşdur.

Qəbirüstü xatirə abidəsinin digər yanında isə maraqlı ov səhnəsi həkk edilmişdir. Təsvirin sol tərəfində öküzün üzərinə hücum edən bəbir təsviri vardır. Təsvirdə öküz özünü müdafiə etmək üçün başını aşağı əyərək buynuzlarını qabağa verib quyruğunu belinə dayanaraq qaldırmış bəbirə müqavimət göstərir. Təsvirin sağ tərəfində at üzərində oturmuş və sol əlində şahin quşu olan ovçu əlindəki nizə ilə öküzü bəbirdən müdafiə edir. Bəbirin öküzə hücum vəziyyətində təsvirinə Şahbuzkəndlə qonşu olan kəndlərdəki abidələrdə də rast gəlinir. Şahbuzkənddən 3-4 kilometr cənub-qərb tərəfdə yerləşən Külüs kənd qəbiristanlığında tədqiq olunan qırmızımtıl rəngli daşdan hazırlanmış trapesiya formalı sənduqətipli qəbirüstü xatirə abidəsi (136 x 36 x 60 sm) üzərində də belə bir səhnəyə – bəbirin hücumundan müdafiə olunan öküz təsvirinə rast gəlinir. Şahbuzkənddən 46 kilometr şimal-şərqdə yerləşən Keçili kəndində də vaxtı ilə tərəfimizdən belə bir təsvir tədqiq olunmuşdur. Ancaq bu təsvirdə bəbirin boynunda oturmuş şahin quşu da həkk edilmişdir .

Bu cür təsvirlərə Şahbuz bölgəsinin digər kəndlərində, xüsusilə Şahbuzkəndlə qonşu ərazidə – cənub tərəfdə yerləşən, hazırda yaşayış olmayan Məzrə kənd qəbiristanlığında da rasr gəlinir. Belə təsvirlərə Naxçıvan Muxtar Respublikasının müxtəlif yerlərində, o cümlədən Gəmiqayada, tarixi daim Naxçıvan bölgəsi ilə sıx bağlı olan, əzəli Azərbaycan torpağı Sisyan rayonunun Urud kəndində və digər Azərbaycan torpaqlarında da rast gəlinmişdir.

Şahbuz rayonu ərazisində çoxlu sayda rast gəlinən bu tip qəbirüstü xatirə abidələrinin təhlili göstərir ki, onlar hamısı ətrafdakı dağların daşlarından yerli ustalar tərəfindən hazırlanmışdır. Həmçinin gözəl sənət nümunələri olan bu abidələr təsdiq edirlər ki, orta əsrlər zamanı Şahbuz bölgəsində daş üzərində işləmə – bədii daşyonma sənəti üzrə inkişaf etmiş mərkəzlər fəaliyyət göstərmişdir. Bu mərkəzlərdə hazırlanan daş məmulatı bölgənin əhalisinin tələbatını ödəməklə bərabər, ətraf, qonşu yaşayış məskənlərinin əhalisinin də daş məmulatlarına olan ehtiyacını ödəmişdir.

*Qəbir daşı üzərində həkk olunan mifoloji məzmunlu təsvir xalqımızın mənəvi mədəniyyətinin öyrənilməsi üçün əvəzedilməz mənbədir.*

**Fəxrəddin SƏFƏRLİ**
**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvləri***

**ŞƏRQ qapısı**
**Baş redaktor:**
**TURAL SƏFƏROV**

***Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
***E-mail: serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**
***Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır***

***Nömrəyə məsul:*** **Səyyar Məmmədov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 4020. Sifariş № 58**